Tədbir 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunub.

Sərgidə "Rəsm" studiyasının 5-18 yaşlı dərnək üzvlərinin rəsm işləri nümayiş etdirilib. Dərnək üzvləri arasında xüsusi qayğıya ehtiyacı olan uşaqlar da var. Rəsm işləri milli üslubda olan kompozisiyalar, təbiət rəsmləri, sualtı aləm, nağıllara illüstrasiyalar və s. kimi mövzularda çəkilib. Peyzaj, miniatür, qrafika, abstrakt, portret və batika kimi janrlarda çəkilən rəsmlər sulu boya, akvarel, quaş, pastel, tuş, akril ilə işlənib.

Sərgini giriş sözü ilə Yaradıcılıq Mərkəzinin direktoru Lalə Qəti açaraq tədbirin yüksək səviyyədə təşkilində göstərdiyi köməyə görə Müasir İncəsənət Muzeyinin rəhbərliyinə minnətdarlığını bildirib. Qonaqlar gənc rəssamlara yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıblar.

Tədbirdə mərkəzin "Çiçəyim" uşaq teatr studiyasının üzvləri Nərmin Abdullayevanın müəllifi olduğu geyim kolleksiyasını nümayiş etdiriblər. Gənc rəssamlar isə qonaqları sərgidəki rəsm əsərləri ilə ətraflı tanış edərək onların çoxsaylı suallarını cavablandırıblar.